No: 1 2025
http://doi.org/10.64400/ndueej.003
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT
UNİVERSİTETİNİN
ELMİ ƏSƏRLƏR JURNALI

# ƏDƏBİYYATDA SƏRHƏDSİZ DÜNYA: KOSMOPOLİTLİK VƏ LOKAL KİMLİKLƏRİN QARŞILAŞMASI
## (Azərbaycan ədəbiyyatına qısa baxış)

**Sevinc Quliyeva ı[1]**
https://orcid.org/0009-0004-6051-6313
sevincquliyeva@ndu.edu.az

**Zamin Babazadə[2]**
https://orcid.org/0009-0003-1395-2545
zaminbabazade92@gmail.com

[1,2]Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan.

"*Yazışılan müəllif:* **zaminbabazade92@gmail.com ;** ***Tel.:( +994) 55 9477159***

**XÜLASƏ**

Müasir qloballaşma dövründə ədəbiyyat sərhədləri aşararaq kosmopolit bir mahiyyət qazanmağa başlayır. Bir tərəfdən dünya ədəbiyyatı mədəniyyətlərarası əlaqələri gücləndirərək yeni bir qlobal mədəni mühit formalaşdırır. Digər tərəfdən, yerli kimliklərin qorunması və milli ədəbiyyatların spesifik xüsusiyyətlərinin saxlanılması əsas problemlərdən biri kimi qalır. Hətta yeni məsələlərin, xüsusən Aİ dəstəkli texnoloji vasitələrin yaradıcılıq imkanlarına malik olması bu problemi daha çox qabardan məqamlara çevrilir. Bu məqalədə ədəbiyyatda kosmopolitlik və milli kimliklərin necə inkişaf etdiyi, birləşdiyi və ya toqquşduğu araşdırılacaq. Həmçinin, bu mövzunun müasir ədəbiyyata təsiri, fərqli mədəniyyətlərin bir-birini necə tamamladığı və ya münaqişəyə girdiyi də nəzərdən keçiriləcək. Məqsədimiz, bu proseslərin ədəbi əsərlərdə necə əks olunduğunu anlamaq və oxuculara daha geniş baxış bucağı təqdim etməkdir.

**Açar sözlər:** *Kosmopolitlik, lokal kimlik, qlobollaşma, Azərbaycan ədəbiyyatı*

## Giriş

Müasir dünyada qloballaşma çox sürətli gedir. Belə ki, əvvəllər hər hansı bir məlumata çatmaq günlər, həftələr alırdısa, artıq saniyələr kifayət edir. Texnologiyanın inkişafı ilə məlumatın yayılması və mədəniyyətlərin qarşılıqlı təsiri daha da sürətlənib. Bu sürət, ədəbiyyatın qloballaşmasına da təsir edib; müxtəlif dillərdə yazılmış əsərlər artıq qısa zamanda dünya oxucularına çatır, mədəni sərhədlər aşılır və ədəbiyyat daha geniş bir coğrafiyada qəbul edilir. Bu, yazıçıların və şairlərin əsərlərinin daha geniş auditoriyalara çatmasına, həmçinin fərqli mədəniyyətlərin bir-birindən öyrənməsinə imkan verir. Kosmopolit ədəbiyyat, qlobal mövzuların işlənməsi və insan təcrübələrinin

ümumbəşəri kontekstdə təqdim olunması ilə seçilir. İnsana xas olan və bəşəri sayıla biləcək bütün məqamlar ədəbi yaradıcılıqda kosmopolitliyin özəyini təşkil edir. Bu anlayış, mədəniyyətlərarası ünsiyyəti və ortaq bəşəri dəyərlərin ifadəsini özündə cəmləyir. Bu ədəbiyyatın nümayəndələrinin əsas məqsədi dünyada insani dəyərlərin tam şəkildə qavranılması və yayılmasıdır. “Kosmopolit yazıçılar müxtəlif mədəni təsirlərdən bəhrələnir və əsərlərində universal mövzulara toxunurlar” (1).

**Əsas hissə**

Azərbaycan ədəbiyyatında da kosmopolit mövzulu əsərlər mövcuddur və diqqət çəkir. Xüsusilə XX əsrin ikinci yarısından etibarən yazıçılar və şairlər öz əsərlərində bəşəri dəyərləri, mədəniyyətlərarası dialoqu və insanlığın ortaq problemlərini əks etdirməyə başlamışlar. Bu daha çox Qərbin və Şərqin ortasında yerləşən bir xalqın dəyərlərinin ortaq və bəşəri dəyərlərə uyğunluğundan irəli gəlir.

Məsələn, Çingiz Hüseynovun "Fətəli Fəthi" romanında fərqli mədəniyyətlərin toqquşması, fərdiyyət və millilik arasındakı balans əks olunur. Yazıçı burada Azərbaycan reallıqları fonunda ümumbəşəri dəyərləri təqdim etməyə çalışmışdır. Dahi mütəfəkkir M.F.Axundzadənin həyatı və yaradıcılığından bəhs edən bu romanda bir çox kosmopolit yanaşmalar mövcuddur. Məsələn ümumən millətlərin oxuması və inkişafı üçün əsərdə deyilən fikirlər bunu bir daha göstərir. “Qiyamlar mənasızdır, dağlıların mübarizəsi də boş şeydir, nə qədər tez sussalar (susdurulacaqlar) o qədər yaxşıdır, çünki, hamıya dinclik lazımdır. Həm də qoy millətlər yetişib bərkisinlər, inkişaf edib elmə-mədəniyyətə yiyələnsinlər” (4, s. 208). Qeyd etmək lazımdır ki, Azərbaycan ədəbiyyatında kosmopolit yanaşmaları ilə seçilən mütəfəkkirlərdən biri də məhz M.F.Axundzadədir. O ədəbiyyatın insana xidmət etməli olduğu qənaətindədir. "M.F.Axundzadə məqalələrində tez-tez ədəbiyyatın insana faydalı olması gerçəyi üzərində dayanır. Tənqidçiyə görə ədəbiyyatla bağlı nə varsa insana xidmət etməlidir” (7, s. 20.).

Bundan başqa, Anarın “Ağ Liman” hekayəsi insanın kosmopolit düşüncəsi və dünyəvi dəyərlər fonunda keçirdiyi daxili sarsıntıları, vətəndaşlıq hissini və qlobal dünyada insanın özünə yer tapmağa çalışmasını təsvir edir. Əsər bir çox bəşəri məsələni əhatə etməklə son illər Azərbaycan ədəbiyyatında kosmopolit örnək kimi diqqət çəkir. Təhminə və Zaurun münasibəti və insanların davranışları bu istiqamətdə maraqlı

nümunələrdir (1, s. 176). Bu obrazların xüsusiyyətlərindəki fərqliliklər də insani dəyər və düşüncələri əks etdirir. "Anarın "Ağ liman" povestinin qəhrəmanları ruhən nə qədər yaxın olurlarsa olsalar da, düşüncə baxımından insan xarakterinin deyişkənliyini əks etdirən fərqli situasiyalarda fərqli psikoloji xüsusiyyətlərlə seçilirlər (10, s. 1159).

Mir Cəlal Paşayevin əsərlərində bəşəri mövzulara toxunulması onun yaradıcılığının əsas xüsusiyyətlərindən biridir. O, ədalət, azadlıq, insan haqları və cəmiyyətin inkişafı kimi fundamental məsələləri qaldıraraq, Azərbaycan ədəbiyyatında həm milli, həm də universal dəyərləri vəhdətdə təqdim etməyə çalışmışdır.

"Bir gəncin manifesti" romanı mənəvi azadlıq, ictimai dəyərlər və müasirləşmə kimi ümumbəşəri anlayışları ön plana çəkir. Əsərin qəhrəmanı cəmiyyətin ziddiyyətləri arasında formalaşmağa çalışan, təhsil və maarifləşmə yolu ilə şəxsi inkişafını təmin etmək istəyən bir gəncdir. Onun daxili mübarizəsi, köhnə və yeni düşüncələr arasındakı qarşıdurması təkcə Azərbaycan cəmiyyətinə xas deyil, həm də bütün dünya gənclərinin üzləşdiyi bir proses kimi təqdim olunur.

Romanda diqqət mərkəzində olan və əsas məqam kosmopolitik məqam kimi qiymətləndirə biləcəyimiz gənc nəslin modernləşmə və yeniliklərə can atması, mühafizəkar düşüncəyə qarşı çıxaraq yeni dəyərlər uğrunda mübarizə aparmasıdır. Burada müəllif yalnız Azərbaycan cəmiyyətinin deyil, ümumilikdə bütün cəmiyyətlərin keçdiyi dəyişiklik prosesini əks etdirir. Mir Cəlal Paşayev ictimai ədalətsizlik, elm və bilik vasitəsilə inkişaf, azad düşüncə və milli kimliyin qorunması kimi məsələləri qlobal kontekstdə araşdıraraq, oxucuya daha geniş bir dünyagörüşü təqdim edir (8). M.C.Paşayevin digər əsərlərində də bəşəri dəyərlər öz əksini tapır. Ümumiyyətlə onun əsərlərində bu cür yanaşmalar əsərin əsas ana məzmun xəttini təşkil edir. "Bədii əsərin mərkəzində dayanan insan və onun taleyi isə həmin mənəvi psixoloji mühitin, cəmiyyətin ab-havası ilə şərtlənir. Burada müxtəlif həyati hadisələr fonunda gerçəklənən insan və onun taleyi dövrün, mühitin, cəmiyyətin zamanın kontekstində açıqlanır, durulur (5, s.195).

Daha qədimlərə getdikdə görürük ki, Azərbaycan klassik ədəbiyyatının nümayəndələri də məhz bəşəri mövzulara üz tutmuşdur. Dahi Nizami və Füzuli yaradıcılığı demək olar ki, öz multikultural və bəşəri dəyərləri ilə seçilir.

Nizami "Xəmsə"də insanın həyatının müxtəlif aspektlərini iç dünyasını və onun təbiətlə və cəmiyyətlə əlaqəsini böyük bir ustalıqla əks etdirmişdir. Nizami kosmopolitik məqamları əsərlərində xüsusilə əxlaqi və fəlsəfi yanaşmaları ilə ortaya qoyur. Əsərlərdə bəşəri məqamlar sevgi, dostluq, ədalət, hikmət və mərhəmətdir. Onlar əsas humanist dəyərlər kimi təbliğ olunur. "Nizamini millətindən, dinindən asılı olmayaraq bütün insanlıq düşündürürdü. Dahi sənətkar dünyanı bir bütöv kimi dərk edir və oxucusuna da bunu aşılayırdı" (9, s. 88-89).

Nizaminin "Leyli və Məcnun" əsərində o, insanın sevgi və tənhalıq kimi emosional mübarizəsini, iki şəxsin timsalında yox, bəşəri bir çərçivədə təqdim edir. Burada Leyli və Məcnunun timsalında dünyada çətinliklər və qısnamar qarşısında tab gətirməli olan iki insanın obrazı və mübarizəsi əks olunur.

Füzuli öz əsərlərində bəşəri dəyərləri əsas ideya kimi təqdim etmiş, "Divan"ında dərin mənəvi və kosmopolit məsələlərə yer vermişdir. Bəşəri məsələlərin sevgi və həqiqət axtarışının insanın daxili aləmində təzahürü filosof tərəfindən təsvir edilmişdir. Bildiyimiz kimi onun yaradıcılığında sevgi təkcə insani keyfiyyət daşımamış, həmçinin ilahi məzmun kəsb etmişdir. O, əsərlərində insanın hərtərəfli inkişafı, ədalət və əxlaq məsələlərinə böyük diqqət yetirir. Bu əsərlərində sevgi, insanın daxili inkişafı və dünyəvi müstəvidəki ədalətsizliklərə qarşı mübarizə bəşəri mövzular olaraq ortaya çıxır.

Adı çəkilən bütün əsərlər və onlarca bu sırada dayana biləcək bədii nümunələr Azərbaycan ədəbiyyatında bəşəri dəyərlərin əks olunduğu nümunələrdəndir. Düşünürük ki, bu əsərlər yalnız Azərbaycan xalqının deyil, bütün bəşəriyyətin mənəvi irsinin örnəkləridir.

Bütün bu nümunələr göstərir ki, Azərbaycan ədəbiyyatında kosmopolitizm anlayışı Azərbaycan ədəbiyyatında tarix boyunca müxtəlif formalarda özünü göstərmişdir. Bu əsərlərdə yerli kimliyin qlobal dəyərlərlə qarşılaşması və onların sintezi öz əksini tapmışdır.

Lokal kimlik anlayışı, milli dəyərlərin, adət-ənənələrin və mədəniyyətin ədəbiyyatda qorunmasını vurğulayır. Ədəbiyyat yerli kimliyin daşıyıcısı kimi çıxış edir və spesifik coğrafi, tarixi və mədəni faktorları əks etdirir. Bu xüsusiyyətlər vasitəsilə oxucular öz mədəni irslərini tanıyır və dəyərləndirirlər (3).

Qloballaşma ədəbiyyata yeni üslub və mövzular gətirərək, yazıçıların dünya ədəbiyyatı ilə əlaqələrini gücləndirmişdir. Müasir dövrdə yazıçılar müxtəlif dillərdə əsərlərə çıxış imkanına malik olduqları üçün üslub və məzmun baxımından daha geniş təsirlərdən faydalanırlar. Bu proses müasir ədəbiyyatın çoxsəsliliyini artırır və fərqli mədəniyyətlər arasındakı dialoqu gücləndirir (6).

Müasir texnologiya dövründə ədəbiyyatda kosmopolitik məqamlar daha çox gündəmə gəlməkdədir. Texnologiyanın inkişafı vasitəsilə datalara əlçatanlıq ədəbi və mədəni əlaqələri o qədər yaxınlaşdırıbdır ki, artıq bundan kənarda durmaq mümkün deyil. Bu cəhətdən günümüzdə qloballaşan dünya kontekstində yazıçılar həm milli kimliyi qorumağa, həm də universal dəyərlərə açıq olmağa çalışırlar. Bu balansın necə qorunduğu isə müasir ədəbi proseslərin əsas problemlərindən biridir.

**NƏTİCƏ**

Qeyd edilənləri ümumiləSon dövrlərdə ədəbi məlumatların yayılması sürətlənib və bu ədəbiyyatın qloballaşmasına da təsir edib. Müxtəlif dillərdə yazılmış əsərlər qısa zaman ərzində dünya oxucularına çatır, mədəni sərhədlər daha asan aşılır, mədəniyyətlərin qarşılıqlı təsirini gücləndirir.

Kosmopolit ədəbiyyat fərqli mədəniyyətlər arasında dialoqu və bəşəri dəyərləri təşviq edir. Yazarlar insanlıq və bəşəri dəyərlərin təbliğinə çalışmalı, müxtəlif mədəni təsirlərdən bəhrələnməlidirlər.

Azərbaycan yazıçıları bəşəri dəyərləri və mədəniyyətlərarası dialoqu əks etdirən əsərlər yaratmışlar. Yazıçılar əsərlərində ümumbəşəri mövzulara toxunmuş, bu mövzuları Azərbaycan reallıqları ilə əlaqələndirərək təqdim etmişlər.

Nizami və Füzuli kimi klassik Azərbaycan şairləri də bəşəri dəyərləri öz əsərlərində təbliğ ediblər. Onlar insanın daxili aləmini, sevgi və ədalət kimi universal mövzuları geniş şəkildə işləyiblər.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Anar. (2019). Ağ liman. Bakı: Qanun nəşriyyatı.

2. Anderson, B. (2006). “Imagined communities: Reflections on the origin and spread of nationalism”. Verso Books.
3. Appiah, K. A. (2006). “Cosmopolitanism: Ethics in a world of strangers”. W. W. Norton & Company.
4. Hüseynov, Ç. H. (1986). “Fətəli fəthi”. Bakı: Yazıçı.
5. Xəlilli, J. (2015). Mir Cəlal Paşayevin nəsrində xoşbəxtlik konsepti. “Motif Akademi Halkbilimi Dergisi, 4”(8), 194–198.
6. Steger, M. B. (2020). “Globalization: A very short introduction”. Oxford University Press.
7. Babazadə, Z. İ. (2025). “Azərbaycan ədəbiyyatında M. F. Axundzadə obrazı” (Fəlsəfə doktorluğu dissertasiyası, əlyazma hüququnda).
8. Paşayev, M. C. (1970). “Bir gəncin manifesti”. Bakı: Gənclik.
9. Quliyeva, S. B. (2021). “Azərbaycan ədəbiyyatında multikulturalizmin bədii inikası”. Bakı: Elm.
10. Rahimli, T. T. (2020). Azerbaycan edebi eleştirisinde Anarın "Beyaz Liman" destanı. “Akademik Tarih ve Düşünce Dergisi, 7”(2), 1158–1167.

## ABSTRACT

### LITERATURE IN A BORDERLESS WORLD: THE CONFRONTATION OF COSMOPOLITANISM AND LOCAL IDENTITIES

### (A Brief Overview of Azerbaijani Literature)

**Sevinc Guliyeva**
**Zamin Babazade**

In the modern era of globalization, literature begins to transcend boundaries, gaining a cosmopolitan essence. On one hand, world literature strengthens intercultural connections, creating a new global cultural environment. On the other hand, the preservation of local identities and maintaining the specific characteristics of national literatures remains one of the key issues. The emergence of new challenges, particularly the creative potential of AI-supported technological tools, has further amplified this problem. This article will explore how cosmopolitanism and national identities have developed, merged, or clashed in literature. Additionally, the impact of these issues on contemporary literature, as well as how different cultures complement or conflict with each other, will also be examined. Our aim

is to understand how these processes are reflected in literary works and provide readers with a broader perspective.

**Keywords**: *Cosmopolitanism, local identity, globalization, Azerbaijani literature*

## АННОТАЦИЯ

## ЛИТЕРАТУРА В БЕЗГРАНИЧНОМ МИРЕ: СОЧЕТАНИЕ КОСМОПОЛИТИЗМА И ЛОКАЛЬНЫХ ИДЕНТИЧНОСТЕЙ

### (Краткий обзор Азербайджанской литературы)

**Севиндж Гулиева**
**Замин Бабазаде**

В эпоху глобализации литература начинает преодолевать границы, приобретая космополитический характер. С одной стороны, мировая литература усиливает межкультурные связи, формируя новую глобальную культурную среду. С другой стороны, сохранение локальных идентичностей и поддержание специфических характеристик национальных литератур остается одной из ключевых проблем. Возникновение новых вызовов, особенно творческий потенциал технологических инструментов с поддержкой ИИ, еще больше подчеркивает эту проблему. В данной статье будет исследовано, как космополитизм и национальные идентичности развиваются, объединяются или сталкиваются в литературе. Кроме того, будет рассмотрено влияние этих проблем на современную литературу, а также то, как разные культуры дополняют или вступают в конфликт друг с другом. Наша цель — понять, как эти процессы отражаются в литературных произведениях и предоставить читателям более широкую перспективу.

**Ключевые слова**: *Космополитизм, локальная идентичность, глобализация, азербайджанская литература*